**Stefan Dujarrik: BMT-nin Baş katibi COP29-un çox uğurlu olacağına inanır**

"Baş katib COP29-un çox uğurlu olacağına inanır".

Bu sözləri keçirdiyi brifinq zamanı AZƏRTAC-ın ABŞ müxbirinin COP29-a hazırlıqla bağlı sualına cavabında BMT-nin Baş katibinin sözçüsü Stefan Dujarrik deyib.

Onun sözlərinə görə, tədbirə hazırlıqla COP29 nümayəndə heyəti ilə BMT-də çoxsaylı müzakirələr baş tutacaq. "Bu tədbir bizim iqlim dəyişikliyi ilə mübarizə apardığımız çox kritik dövrdə baş verir. Baş katibin də dediyi kimi bu mübarizə düzgün yolla getmir və yenilənmiş öhdəlik və fəaliyyətlərə ehtiyac var. Əminəm ki, müzakirələr zamanı bır sıra regional məsələlər də gündəmə gətiriləcək", - deyə BMT sözçüsü qeyd edib.

**Məlahət Nəcəfova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Nyu-York**

**AZƏRTAC**
**2024, 17 sentyabr**